# “Abay” Azərbaycan dilində



**Atatürk Mərkəzində görkəmli qazax yazıçısı Muxtar Auezovun “Abay” kitabının təqdimatı olub. Mərkəzin və Beynəlxalq Türk Akademiyasının birgə təşkilatçılığı ilə keçirilən mərasimdə Milli Məclisin deputatları, elm və söz adamları, mədəniyyət xadimləri, həmçinin, media nümayəndələri iştirak ediblər.**

Azərbaycan Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov Muxtar Auezovun həyat və yaradıcılığı barədə ətraflı məlumat verərək, onun “Abay” romanında türk xalqlarının ortaq mənəvi dünyasını əks etdirdiyini vurğulayıb.

Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev tədbirin əhəmiyyətindən danışıb. Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel isə “Abay” romanının Azərbaycan oxucusuna təqdim olunmasını ölkələrimiz arasında mədəni əlaqələrin inkişafı baxımından mühüm hadisə kimi dəyərləndirib.

XIX əsrdə qazax xalqının həyatından bəhs edən “Abay” romanı Muxtar Auezovun böyük ustalıqla qələmə aldığı “sosial ensiklopediya” olmaqla yanaşı, dünya romançılıq mədəniyyətinə böyük töhfə vermişdir. Yazıçı əsərin baş qəhrəmanı olan Abayın şəxsində milli psixologiyanın, sosial yaşamda etnik-milli şüurun formalaşmasını fərqli rəng çalarları ilə göstərə bilmişdir.

***Fidan SALMANOVA***
***XQ***